Hürriyyət

# Poeziya

SİZİN ÜÇÜN QƏZET

№31 (3229) 13 Sentyabr / 2022-ci il

www.hurriyyet.az; / hurriyyet@mail.ru



## İKİ MƏZAR ARASINDA AĞLAYAN ANA

*(İki övladını birdən torpağa verən şəhid analarına)*

Bətinində tərpənəndə hiss eləyirdin
Şıltaqlıq eləyir durmur, oynayır, gülür...
İki məzar arasında indi oturmuş
Dəli kimi ağlayırsan,onlar da bilir?..
Hərəsi iyirmi yaşda,əslində qırx il,
Qırx il sevmiş,qırx il qucmuş...
Daim yanarsan...
Daha başına nə gəlsə umrunda deyil,
Onları ən tez görməyə sən inanarsan...
Yuxu kimi keçir vaxt,aşkarın da yuxu,
Ən çox getmək istədiyin bir yer var sənin,
Birdən görərlər ki yoxsan,durub gəzərlər,
İki məzar arasından taparlar səni...
Dünyada elə bir yaylıq yoxdur ki,çatsın
İxtiyarı gözünün yaşların silməyə!..
Qoy biri sağında,biri solunda yatsın,
Belə ana laylası oxşamaz heç nəyə!..
Ətirləri burnunun ucunu göynədir,
Adam kimi yaşayırlar xatirə...

* * *

## ÖLƏRSƏN, GETMƏZ...

Allah yazıları alnında yazar,
Ovarsan, yuyarsan,silərsən getməz...
Ən xain düşmənin yanında gəzər,
Getməyin Tanrıdan dilərsən getməz...
Bəzən pis dalbadal gəlir önünə,
Elə adamlar var gülərlər sənə...
Yeriyər yığışıb dünya üstünə,
Nə qədər də xahiş elərsən getməz...
Götür vur başına daşları bir-bir--
Olmaq istəmir də,olmaq istəmir!..
Biri ki yanında qalmaq istəmir,
Guya ki, qayğına bələrsən,getməz?!
Onu ki istərsən cani-könüldən,
Gecəylə gündüzü səhv salarsan sən...
Və ondankı vaxtında ayrılmazsan,
Nisgili qəlbindən ölərsən, getməz!..

*2.06.22*

* * *

## ÖMRÜMÜN İÇİNDƏN BİR KİŞİ KEÇİR...

Baxıram, toz-duman qalxıb haraya...
Ömrümün içindən bir kişi keçir...
Elə bil qatıbdı ağı qaraya,
Ömrümün içindən bir kişi keçir...
Elə bil çox şeyi görmək istəmir,
Qalxsın pillələri tək-tək,istəmir..
Əlində nəsə var,vermək istəmir...
Ömrümün içindən bir kişi keçir...
Ömrümün içiylə atır addımlar,
Gedəcək nə qədər,havaxta qədər...
Özünün içində bilmirəm nə var,
Ömrümün içindən bir kişi keçir...
Oxşayır ürəyi dolu olana,
Amma ki tökübdü qaş-qabağını...
Dayanıb ağzını boşaldacaqmı...
Bu kişi ömrümün içindən keçir...
Bumuydu həmişə mən səslədiyim,
Bumuydu,bumuydu mən gözlədiyim?..
Deyəsən,hamıdan şox istədiyim
O kişi ömrümün içindən keçir...
Satmışam hər şeyi,arzularımı,
Onamı vermişəm ixtiyarımı?..
Qatıb qabağına bütün varım...

* * *

## BİLMƏDİYİM BİR ŞEYLƏRİ...

Ömrün içiylə gedirdim,
Onsuzda,tək gedirdim...
Heç yerdən işıq gəlmirdi,
İstəməyərək gedirdim...
Məni Tanrı yaratmışdı,
Dünyaya əsir düşmüşdüm...
Əsirlikdən qurtarmamış



Bir də səninlə görüşdüm...
Təzə ayrı bir qapı açıldı,sandım...
Parıldadı məyus gözlərim,
Düşündüm ki,bir daha
Dönmərəm köhnə həyatıma,
Qurtardı əsarətim!!!
Mən hansımızın yalanına inandım?..
Amma haçan olmuşdu ki
Gedib gəlmədiyim?!
Köhnə dünyanı uçurdub,
Təzənin yolun göstərdin,
Bilmədiyim...Bilmədiyim
Bir şeyləri hiss etdim...
Məni təkliyimdən qaçırdıb
Yalqızlığa nökər verdin!!!
İndi haramdan görünür dəlirmədiyim?!

*03.06.22*

* * *

## QADIN OLDUĞUNU UNUDAN QADIN

Ya ərli, ya ərsiz - uşaqlarını
Tək böyüdər bu qadınlar dünyada...
Nə pis yola düşməz,nə yüngülləşməz,
Rahat yuxunu unudar dünyada...
Bir dəfə bir dəstə gül gəlməz ona,
Doğum günlərini önəmsəməz də...
Bəlkə Tanrıdan da küsər qəlbində,
Nəyi biləcəksən özü deməzsə?!
Qadın olduğunu çoxdan unudar,
Kiminçin bəzəyim özümü,deyər...
Nə etsə eləyər uşaqlarıyçın,
Nə tapıb gətirər körpələr yeyər...
Ərlimi, ərsizmi, amma talehsiz,
Bu qədər yük nədir zərif qadına?!
Qadın olduğuna bəzən hirslənər,
Amma söz gətirməz təmiz adına!!!
Əvvəl yavaş-yavaş başlayar hər şey,
Yavaş-yavaş da unudar gülməyi...
Körpələrimi bir yanlıq etməmiş,
Düşünə bilmərəm,deyər,ölməyi...
Bilmirəm nə görər yuxularında,
Onu da yozdurmaz,başından atar...
Şişər ayaqları,gözü göy...

* * *

## RƏSUL İLƏ NİGAR

*(Rəsul Rza və Nigar xanıma)*

Bir il kimi uzun olar gecələr
O vaxtlar ki yarın səni görmədi...
Onun üçün şeyir yazıb darıxan
Bu intizar əllərini görmədi...
Heç bilmirsən havaxt gəldi bu insan,
Bir də baxıb ürəyində tapırsan...
Alagözlü ondan ötrü yazılan
Axırıncı şeyirini görmədi...
Bir-birini uzaqlardan gördülər,
İki qəlbdən bir səltənət hördülər...
Bir-birindən xəbərsiz can verdilər,
Ala gözlər bir-birini görmədi...
İlhamə atadan,yardan yetimdir,
Düşürdüb hər şeyin əlindən bir-bir...
Kim dünyadan məndən əvvəl gedibdir,
Yaxşı oldu bu dəlini görmədi...

*11.06.22*

* * *

## MƏNƏM

Kölə bazarında satılan qulun
Biri Yusifdisə,biri də mənəm...
Qürbət,ayrılığı qırx il uzanıb,
Canın zindanlarda əridən mənəm...
Gecə uzananda çıxmaq bilməz gün...
Kədər də içimdə itirməz gücün...
Və hər şeyin yaxşı olmağı üçün
Çıxan da qabığdan-dəridən,mənəm...
Qalmışam dünyada hər şeydən yetim,
Könül yanğısında əriyir ətim...
Heç kəsdə günah yox,özüm elədim,
Çirkin də,yoxsul da,dəli də mənəm!..

*15.05.22*

* * *

## HƏQİQƏT GƏZİRSƏN...

Həqiqət gəzirsən,gündoğana bax,
Və hər gün de,Günəş bir daha yansın!!!
Bakirə qəlbləri, təmiz canları
Bu gün yandıranlar sabaha yansın!!!
Səni necə sevib yaradıb bilsən,
Yoxsa hamısına peşman edirsən?..
Niyə bu qədər pissən,incidirsən,
Ürəyin bir az da Allaha yansın!...
Mən nə tam məğlubam,nə qalibəm tam--
İçində hər bir şey olan həyatam!..
Özü düzəltməsə özünü adam,
Ana ha ağlasın,xala ha yansın...

*01.06.22*

* * *

## KƏDƏRİN HİYLƏSİ

Ömrümün harasına
Baxıram,narazılıq...
Hər şeyi gec anladım,
Kaş ki bunu olmaya!..
Canımı it gününə
Qoymaq lazım idimi?!
Neynir adam hər şeyi,
Sağlam canı olmaya?!
Kədərin hiyləsinə
Uduzurmuşuq,demə,
Elə acı varmı ki,
Çəkən onu olmaya?!
Əzizim,az qalıbdır,
Darıxma,lap az qalıb,
Ömür nə qədərdi ki
Dərdin sonu olmaya?!

*25.08.22*

* * *

## DEYİRLƏR...

*(Rəhimova Səbinə İlham qızına)*

Deyirlər xeyirxah, gözəl qadınsan,
Baxdığın aynadan kimi görürsən?..
Şöhrətin uzağa yayılıb yaman,
Deyirlər yoxsula çörək verirsən...
Ana qucağında sən də yatıbsan,
Doğma laylasında bala batıbsan...
Bütün arzulara,madam,çatıbsan,
Bu daşı divara niyə hörürsən?!
Dözürəm hər şeyə,deyiləm daşdan,
Sadəcə, yaxşıya tapmıram imkan...
Bacarsam, hamısın qurardım başdan...
Sən də hər şeyinə dəyər verirsən...
İlhamə atadan,yardan yetimsə,
Nə etsin? Və bunu Allah edibsə?!
Anan da dünyadan nakam gedibsə,
Kimin yuxusuna başqa girirsən?..

*08.04.22*

* * *

## TURAN ELLƏRİMİN EŞSİZ GÖZƏLİ

Turan ellərimin eşsiz gözəli,
Ürəyə birbaşa girən Kəlağay!
Yumuşaq canına hər rəng yaraşır,
Ağrıyana şəfa verən Kəlağay!
Təzə şöhrət deyil sən qazandığın,
Açsa,nələr çıxar,tarix sandığın...
Öz halal yerindir bu dayandığın,
İllər,qərinələr görən Kəlağay!..
Sənə toxunarkən,əlim dəyərkən,
Elə bil çatıram muradıma mən...
Səni kim düşünüb belə,görəsən,
Eyyy könülləri dindirən Kəlağay!..
Mənki dəlisiyəm ipək ruhunun,
Hələ ki dərmanı tapılmır bunun!..
Axır son mənzilə düşəcək yolum,
Məni sən ötürərsən,sən,Kəlağay!!!

*04.09.22*

* * *

## KƏLAĞAYI

Sən bir qızın çiynində
Əsirliyə getdin...
O qız öldü...
Sən uçdun göyə...
Elə ordan uçdun...
Ağladın yaddaşına...
Sən bir gəlinin başında
Güllə səsindən qorxdun...
Həmişəlik qısıldın o yalqızın başına...
Dul qalmış bir ürəklə
Eyni dərdə yovuşdun...
Amma sən heç bir ata balasına
Məzar qazsın istəmədin...
Axı,sən bu dünyada ən birinci
Oyanardın yuxudan,
Axı,hər sabah qızların əl atıb götürdüyü
İlk və ən möcüzə şey sən olardın...
Sən əməlli-başlı gördün hara getdi
Bacıların itirdiyi...
Sən Xan qızının həsrətli şeyirlərini
Hamıdan əvvəl oxuyardın...
Saçlarına pıçıldayardın...
Ən birinci görərdin çəkdiyi rəsimləri...
Sonra...
Heç qız şeyir yazsın istəmədin!..
Sən uşaqların suallarından göz yaşı sildin
Göynəyən uclarınla...
Sən oğulların itkin xəbərindən sonra
Anaların başından sürüşüb
Düşdün qaranlıq sandıqlara...
Sən bəyaz günlərdə olmalı deyildin?!
Sən də qadınlar qədər acı çəkmisən,
Batmısan göz yaşları selinə...
Hamı şahiddir acına!..
Amma düşmən əlinə
Düşmədin!!!
Açıldı yaralı sandıqlar,
Kəpənək qanadı kimi zərif canınla
Uçdun o tərəfə,
Uçdun bu tərəfə!!!
Uçdun azadlığın əllərində!!!
Və dedin:
Mənim göy, qırmızı, yaşıl
rənglim, ay-ulduzlum,
Mən
Sənin
İntiqamı alınmış bacınam!!!

*02.09.2022*

**İlhamə ABDUL**